# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

**ELMİ-NƏZƏRİ VƏ PRAKTİKİ JURNAL**

*"Kitabxanaşünaslıq və informasiya" jurnalı 08.10.2010-cu il tarixində Beynəlxalq İSSN Mərkəzi (Paris, Fransa) tərəfindən 2219-5882 nömrəsi ilə ardı davam edən nəşrlərin beynəlxalq reyestrinə daxil edilmişdir.*

# № 1 (31)

**https://ricest.ac.ir/**

http://anl.az

**Bakı – 2020**

**Təsisçi və baş redaktor:** **Abuzər XƏLƏFOV**
***Əməkdar elm xadimi, BDU-nun fəxri professoru, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor***

**Baş redaktor müavini:** **Azad QURBANOV**
***fəlsəfə doktoru (fizika-riyaziyyat elmləri üzrə), dosent***

**Məsul katib:** **Pərviz KAZİMİ**
***Fəlsəfə doktoru (tarix üzrə), dosent***

**Redaksiya heyəti:**
**Zülfi Toman,** ***Türkiyə Milli Kitabxanasının direktoru***
**Roman Motulskiy,** ***Belarus Milli Kitabxanasının direktoru***
**Aybəniz Əliyeva-Kəngərli,** ***filologiya elmləri doktoru***
**Xəlil İsmayılov,** ***tarix elmləri doktoru, professor***
**Umutkan Munalbaeva,** ***Qazaxıstan Milli Akademik Kitabxanasının direktoru***
**Kərim Tahirov,** ***fəlsəfə doktoru (tarix üzrə), professor Azərbaycan Milli Kitabxanasının direktoru***
**Mayıl Əhmədov,** ***Prezident Kitabxanasının direktoru***
**Aleksandr Verşinin,** ***Rusiya Milli Kitabxanasının baş direktoru***
**Vadim Duda,** ***Rusiya Dövlət Kitabxanasının baş direktoru***
**Tamara Vileqjanina,** ***Yaroslav Mudrıy adına Ukrayna Milli Kitabxanasının baş direktoru***
**Elçin Əhmədov,** ***fəlsəfə doktoru (pedaqogika üzrə), dosent***
**Knyaz Aslan ,** ***fəlsəfə doktoru (pedaqogika üzrə), dosent***
**Nadir İsmayılov,** ***fəlsəfə doktoru (pedaqogika üzrə), dosent***

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə № 3135, 16.03.2010.

---

Redaksiyanın ünvanı: Az 1073, Bakı şəhəri, Zahid Xəlilov küç. 23
Bakı Dövlət Universiteti, 2 saylı tədris korpusu, mərtəbə 4, otaq № 508
Telefon: (+994 12) 439-05-47.
№1(31) 2020

*© "Kitabxanaşünaslıq və informasiya", 2020, № 1(31).*

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| Tahirov K.M. | Azərbaycan kitabxanaşünaslığının patriarxı, Azərbaycanın "baş kitabxanaçısı" | 7 |
| Elçin Əhmədov | Ölümsüzlük zirvəsində | 12 |
| Eldəniz Məmmədov | Azərbaycan kitabxanaşünaslığının banisi və uğuru - professor Abuzər Alı oğlu Xələfov | 16 |
| Azad Qurbanov | Elektron təhsil sistemlərinin əsas xüsusiyyətləri | 23 |
| Almaz Ülvi Binnətova | Azərbaycanda kitabxanaşünaslıq elminin yeni epoxası *(elmi-innovativ kontekstdə elektron kitabxanaçılıq məsələləri)* | 33 |
| Kunanets N.E., Lypak Q.İ., Veretennikova N. V. | Bölgənin sosial yaddaş institutları və məlumat mənbələrinin konsolidasiyası | 41 |
| Kazimi Pərviz | Dil və əlifbanın sosial mədəni kommunikasiyada tarixi rolu | 54 |
| Rjeuskiy E.V., Kunanets N. E., Pasiçnik V. V. | Kitabxanaların fəaliyyətində "informasiya məhsulları" modeli sosial-kommunikasiya institutları kimi | 64 |
| Güler Demir, Ayşenur Güneş | Bilgi okuryazarlığı becerilerinin geliştirilmesinde kütüphanelerin rolü: kuramsal bir değerlendirme | 72 |
| Kəmalə Məmmədova | Pandemiya dövründə kitabxanaların marketinq siyasəti | 89 |
| Quliyev Oruc | Kitabxanaların sosial şəbəkələrdə fəaliyyəti və innovasiyalar | 95 |
| İsmayılova Ə.İ. | Sosial mediada kitabxana səhifələrinin vacib atributları | 101 |
| İlker Cakmakkaya, Ersoy Soydan | Xalq kitabxanaları mədəniyyətlərarası ünsiyyət məkanı kimi | 106 |
| Daşqın Məhəmmədli | Dünya kitabxana təsnifatlarının bəzi nəzəri və təcrübi məsələləri | 122 |
| Məmmədova S.İ. | Elektron resurlarla kompektləşmə siyasəti kitabxana fondlarının formalaşmasının əsas amili kimi | 130 |

# SOSİAL MEDİADA KİTABXANA SƏHİFƏLƏRİNİN VACİB ATRİBUTLARI

**İSMAYILOVA Ə.İ.**
***Milli Kitabxananın Kitabxana-informasiya xidməti və beynəlxalq əlaqələr üzrə direktor müavini, Əməkdar mədəniyyət işçisi***

*Məqalədə kitabxanaların sosial mediada fəaliyyətindən, koronavirus pandemiyası dövründə karantin şəraitində Milli Kitabxanada kitabxana-informasiya xidmətinin onlayn rejimdə təşkilindən bəhs edilir.*
***Açar sözlər:*** *sosial media, koronavirus (COVID-19), "Evdə qal, özünü qoru", "Kreativ Azərbaycan"*

Son zamanlar kitabxanalar müxtəlif iş üsullarından istifadə edərək öz fəaliyyət dairəsini genişləndirir, ənənəvi və virtual kommunikativ təcrübəni birləşdirməyə imkanlar yaradan kreativ yanaşmalara daha çox diqqət ayırırlar. İnternetdən gündəlik istifadə, müxtəlif bloq və saytların köməyi kitabxanalardan qlobal şəbəkədə daha geniş istifadə imkanları yaradır. İnsanlar internet şəbəkəsində kitabxanaların fəaliyyəti ilə nə qədər çox tanış olsalar, kitabxanalar insanlar üçün bir o qədər maraqlı və aktual olar və onlar kitabxana istifadəçisinə çevrilə və ya müxtəlif bloq və saytlara üzv ola bilərlər. Kitabxana saytlarının zəngin olması istifadəçilərin kitabxanalara cəlb olunmasına, kitabxanaların imicinin yüksəlməsinə və mütaliəyə marağın artmasına şərait yaradır. İstifadəçilərin şəbəkələrdə məhz kitabaxana saytlarından istifadə edərək, özlərinə maraqlı, faydalı və dəqiq məlumatları əldə etmələri, həmçinin kitabxana işçiləri ilə dialoqlara girmələri, şərhlər yazıb, müxtəlif məsələlərə aid öz fikirlərini bildirmələri bu gün kitabxanaların qarşısında duran vəzifələrdəndir. İnternet bu gün kitabxana və oxucular arasında dialoqun qaydaya salınması üçün effektiv vasitədir. Hal-hazırda, kitabxananın yeni oxucular cəlb etməyə, informasiya, mədəni və təhsil funksiyalarının yerinə yetirilməsini təmin edən sosioloji bir qurum kimi populyarlığını artırmağa kəskin ehtiyacı vardır. Buna kitabxananın sosial şəbəkələrdəki fəal işi kömək edə bilər. Sosial şəbəkələr kitabxananın və xidmətlərinin inkişaf edəcəyi və yeni oxucular cəlb edə biləcəyi, həm də istifadəçilərlə konstruktiv dialoq quraraq əks əlaqəyə girə biləcəyi bir yerdir. Respublikamızda son illər ölkə başçısı kitabxanaların səmərəli fəaliyyət göstərməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, fondların zənginləşdirilməsi üçün bir sıra xüsusi əhəmiyyətli sənədlər imzalamışdır. Həmin sənədlərin icrası nəticəsində kitabxana-informasiya sahəsində yeni texnologiyalar tətbiq edilmiş, müasir kitabxana-informasiya infrastrukturu yaradılmış və istifadəçilərə göstərilən xidmətlərin sayının və keyfiyyətinin artırılması, əhalinin intellektual potensialının, bilik səviyyəsinin inkişafı, habelə

fasiləsiz təhsilin təmin edilməsi üçün əlverişli zəmin yaradılmışdır. Respublikanın baş kitabxanası olan Milli Kitabxana "Elektron hökumət" Konsepsiyasının icrası ilə əlaqədar oxuculara kitabxana-informasiya xidmətinin elektronlaşdırılması, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, oxuculara virtual xidmət üçün müvafiq infrastrukturun və proqram təminatının yaradılması istiqamətində bir sıra kreativ yönlü layihələr həyata keçirmişdir. Məhz bu tədbirlərin icrası nəticəsində istifadəçilərə onlayn rejimdə informasiya-biblioqrafiya xidmətləri göstərilməsi üçün real şərait yaranmışdır. Bu gün bütün dünyanı bürüyən yeni koronavirus (COVID-19) infeksiyası ölkəmizdə də insanlar üçün böyük çətinliklər yaradıb. Əhaliyə ictimai yerlərə getməmək, mümkün olduğu qədər evdə oturmaq tövsiyə olunur. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən qabaqlayıcı tədbirlər çərçivəsində məktəblər, kitabxanalar, muzeylər, teatrlar, konsert salonları bağlanmışdır. İnfeksiyanın yayılmasının qarşısını almaq məqsədilə bir çox müəssisələr müvəqqəti olaraq bağlansalar da, öz fəaliyyətlərini onlayn rejimdə davam etdirirlər. Ölkə Prezidentinin "Evdə qal, özünu qoru" çağırışına səs verərək Milli Kitabxananın kollektivi də Mədəniyyət Nazirliyinin "Evim, mənim yeni iş yerim" çağırışına qoşularaq onlayn rejimdə oxuculara xidmət göstərir. Milli Kitabxananın Elektron kataloq və Elektron kitabxana resurs bazalarında toplanmış materiallar haqqında məlumatların sosial şəbəkələrdə təbliği istifadəçilərin kitabxanalara cəlb olunmasına, mütaliəyə marağın artmasına səbəb olur. Koronavirus dövründə kitabxana resurslarının sosial şəbəkələrdə təqdim edilməsi isə kitaba, mütaliəyə olan marağı daha da artırmışdır. Milli Kitabxananın əməkdaşları Mədəniyyət Nazirliyi və "Kreativ Azərbaycan" portalı tərəfindən irəli sürülən "Evdə qal, evdə yarat" təşəbbüsünə qoşularaq, vətəndaşların bu müddətdə vaxtlarını səmərəli keçirmələri üçün hazırladıqları informasiya resurslarını sosial şəbəkələrdə paylaşırlar. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə elan edilən "Könüllülər ili" ilə əlaqədar kitabxananın nəzdində fəaliyyət göstərən Açıq kitabxananın "Könüllülər qrupu" vəziyyətlə əlaqədar insanların ev şəraitində səmərəli vaxt keçirmələri üçün maraqlı kitabların linklərini, video görüntülərini və xülasələrini kitabxananın "Facebook" səhifəsi vasitəsilə onlayn şəkildə oxuculara təqdim edir. Onu da qeyd edək ki, bu təşəbbüs oxucular tərəfindən çox bəyənilir. Onlar hətta oxumaq istədikləri kitabları bu gün artıq bizə sosial şəbəkələr vasitəsilə yazırlar. Qlobal internet şəbəkəsi yaranana qədər biz mütaliə üçün seçmək istədiyimiz ədəbiyyat haqqında məlumatı yaxınlarımızdan, dostlarımızdan və kitabxanaçılardan əldə edirdik. Hazırda oxunmuş kitablar haqqında diskussiyalar, kitabxanaçıların məsləhətləri, kitab buktreylerlərinin yerləşdirilməsi, əsərlərdən olan sitatlar, elektron kitabxanalara və müxtəlif növ xidmətlərə istinadlar istifadəçiyə ürəyincə olan kitabları seçməyə imkan yaradır və bu da, öz növbəsində, sosial mediada kitabxana səhifələrinin vacib atributudur. Son zamanlar gənc nəslin öz fikirlərini is-

tər yazılı, istərsə də şifahi formada düzgün ifadə edə bilməməsi haqqında fikirlər çox tez-tez səslənir. Bu mənada kitabxana bloqlarında verilən şərhlər öyrədici bir vasitə ola bilər və savadlı kitabxana kadrlarının şərhləri istifadəçi üçün bir nümunəyə çevrilər. Əgər istifadəçi müxtəlif mesencerlərlə ünsiyyətdə səhvlərə yol verirsə və bunun şəxsi xarakter daşıdığını deyib özünə bəraət qazandırırsa, kitabxana saytlarında və bloqlarında isə o, öz fikirlərini daha düzgün ifadə etməyə çalışacaqdır. Məhz buna görə də indi qlobal internet və digər sosial şəbəkələr insanların, xüsusilə gənclərin yaxın məsləhətçisinə çevrilirlər. Müasir kitabxanaların oxucuları yalnız qiraət zallarında mütaliə edənlər deyil, həm də onlayn istifadəçilərdir. Buna görə də onlayn istifadəçilərin kitabxana haqqında, onların təqdim etdiyi xidmətlər, o cümlədən virtual xidmətlər barədə istənilən şəkildə məlumatlı olmalarına şərait yaratmaq lazımdır. Bu məramı yerinə yetirməyə çalışan Milli Kitabxana respublikamızda yaranan şəraitlə əlaqədar qısa zaman kəsiyində istifadəçilərə kitabxana-informasiya xidmətini onlayn rejimdə təqdim etmək üçün xidmət miqyasını genişləndirərək, kitabxananın saytında yeni "Onlayn xidmətlər" pəncərəsi yaratmışdır. Bu pəncərə vasitəsilə karantin rejimi tətbiq olunandan bu günədək 8 639 istifadəçiyə sənədlərin elektron çatdırılması xidməti göstərilib. Bu müddət ərzində onlara 9 469 kitab və 14 535 məqalənin elektron çatdırılması təmin olunmuşdur. Eyni zamanda oxucu sorğusu əsasında Kitabxananın elektron bazasında olmayan 408 kitabın və 703 məqalənin elektron versiyası hazırlanaraq istifadəçilərin elektron ünvanına göndərilib. 715 istifadəçiyə biblioqrafik məsləhət verilmişdir. Gün ərzində kitabxananın oxu zallarında mütaliə edən, elmi tədqiqatlar və araşdırmalar aparan alimlərimiz, tədqiqatçılarımız, gənclərimiz, kitabsevərlərimiz artıq bu gün Milli Kitabxananın onlayn xidmətlərinə müraciət edirlər və onlara lazım olan resurslar tez bir zamanda istifadəçilərin elektron ünvanlarına göndərilir. Kitabxananın aşağıdakı onlayn xidmətləri tam qüvvəsi ilə oxucular üçün aktivdir:

Biblioqrafik sorğu http://anl.az/new/az/ask-us/21/43, Sənədlərin sifarişi və elektron çatdırılması http://anl.az/new/az/pages/75, Metodiki xidmət (kitabxanalar üçün) http://anl.az/new/az/methodical-service/20. Milli Kitabxananın saytının (anl.az) "Elektron kataloq və elektron kitabxana" bölməsinin "Onlayn oxu" düyməsi vasitəsilə bilavasitə saytdan açaraq özü mütaliə etmək istəyən istifadəçilər bəhrələnirlər. Xüsusi karantin rejimi dövründə 1 500 000 nəfər istifadəçi kitabları onlayn oxumaq üçün bu xidmət növündən istifadə etmişdir. Bütövlükdə (anl.az) saytına daxil olanların sayı isə müvafiq dövrdə 2 800 000 nəfər olmuşdur. Milli Kitabxananın nəzdində fəaliyyət göstərən Açıq Kitabxananın Könüllülər qrupu tərəfindən kitabxananın rəsmi "Facebook" səhifəsində daha maraqlı və oxunaqlı olan 250 kitabın elektron versiyası istifadəçilərə təqdim olunmuşdur. Kitabxana tərəfindən yaradılaraq ənənəvi şəkildə oxuculara təqdim olunan Elektron məlumat bazalarının da xüsusi karantin dövründə vir-

tual rejimdə oxuculara təqdim olunması həyata keçirilmişdir. Müvafiq dövrdə "Xalq Şairi Səməd Vurğun", "31 Mart azərbaycanlıların soyqırımı günü", "Aprel Döyüşləri Bizim Şanlı Qələbəmizdir", "İctimai-siyasi xadim, yazıçı, publisist Nəriman Nərimanov-150", "Zərifə xanım Əliyeva", "Azərbaycanda Kitabxanaşünaslıq elminin banisi - Abuzər Xələfov", "Qobustan", "Böyük Qələbə - 75", "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev" mövzularında Elekton məlumat bazaları hazırlanaraq müxtəlif saytlar və sosial şəbəkələr vasitəsilə oxuculara təqdim olunmuşdur. Milli Kitabxana tərəfindən ənənəvi olaraq bu və ya digər mövzulara dair tərtib olunan kitab sərgiləri də onlayn rejimdə virtual sərgilər formasında təqdim olunmağa başlanmışdır və karantin rejimi dövründə "Süleyman Rəhimov-120", "Azərbaycanın tarixi abidələri", "İlk azərbaycanlı pediatr, Əməkdar elm xadimi, professor Əbülfəz Qarayev", "General Əliağa Şıxlinski","Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi günü", "Şanlı zəfər tariximiz - 75" mövzularında virtual sərgilər tərtib olunaraq oxuculara təqdim olunmuşdur. Kitabxananın rəhbərliyi müvafiq dövr ərzində MDB ölkələrinin və bir sıra dünya ölkələrinin milli kitabxanalarının direktorlarının iştirakı ilə 29 aprel tarixində keçirilən "Karantin şəraitində mütaliə: Kitabxanalar yeni formatda" mövzusunda Beynəlxalq Onlayn Forumda iştirak etmiş və yeni şəraitdə həyata keçirdiyi layihələrdən və onlayn xidmət formalarından danışmışdır. Türkiyə, Rusiya, Qazaxıstan, Azərbaycan, İtaliya (Roma), Rumınıya, Bolqarıstan, Çin, Malayziya, Moldova, Gürcüstan milli kitabxanalarının direktorları Azərbaycan Milli Kitabxanasının yeni tətbiq etdiyi onlayn xidmətlər və xüsusilə "Sənədlərin sifarişi və elektron çatdırılması" xidmət növü ilə çox maraqlanmış, kitabların və dissertasiyaların pdf formatında oxuculara çatdırılmasını çox yüksək qiymətləndirmişlər. Müvafiq dövr ərzində Milli Kitabxana tərəfindən kitabxana işçiləri üçün 3 telekonfrans keçirilmişdir. Milli Kitabxananın saytında respublika kitabxanalarından gələn virtual sifarişlərin qəbulu üçün fəaliyyət göstərən onlayn "Metodik xidmət" bölməsinə gün ərzində onlarla sifariş daxil olur. Bu sifarişlərin ödənilməsi bölgələrdə oxuculara kitabxana-informasiya xidmətini təmin edir. Milli Kitabxananın elektron bazasından istifadə etməklə bölgələrdə oxuculara verilən rədd cavablarının qarşısı alınır. Azərbaycan Milli Kitabxanası hər il çoxlu sayda biblioqrafik və metodik vəsaitlər, informasiya göstəriciləri, məlumat nəşrləri hazırlayıb kitabxana ictimaiyyətinə, oxucularına təqdim etməklə onların mütaliəyə marağının artırılmasına kömək edir və öz sahələri üzrə istiqamətlənmələrində, axtarışlarının operativləşdirilməsində əhəmiyyətli rol oynayır. Vəziyyətlə əlaqədar bu gün Milli Kitabxananın metodik nəşrlərinin də virtual rejimdə təqdimatına başlanılıb. Azərbaycan Milli Kitabxanası ölkənin bütün kitabxanaları üçün metodik mərkəz funksiyasını həyata keçirərək, xüsusi karantin rejimi dövründə metodik fəaliyyətini də onlayn rejimdə davam etdirərək, kitabxanalar üçün tərtib olunmuş 2 ədəd metodik tövsiyəni – görkəmli ictimai-siyasi xadim, ədib

Nəriman Nərimanova həsr olunmuş "Nəriman Nərimanov -150" və Böyük Vətən müharibəsində tarixi Qələbənin 75 illiyinə həsr olunmuş "Şanlı zəfər tariximiz" adlı virtual metodik vəsaitləri onlayn formada kitabxana işçilərinə təqdim etmişdir. Xüsusi karantin rejimi dövründə Milli Kitabxana tərəfindən Böyük Vətən müharibəsində tarixi Qələbənin 75 illiyi ilə əlaqədar "Azərbaycan Böyük Vətən müharibəsi illərində" adlı 2 cildlik fundamental biblioqrafiya və "Azərbaycan Milli Kitabxanası Böyük Vətən müharibəsi illərində" mövzusunda kitab (Azərbaycan və rus dillərində) hazırlanaraq nəşrə təqdim olunmuşdur.

## ƏDƏBİYYAT

1. Xələfov A. Kitabxana və cəmiyyət.-Bakı, 2011.- 302 s.
2. Tahirov K. İnternet və kitabxana //Respublika qəzeti.-2003.-23 iyul.-s.6.
3. İsmayılova Ə. Milli Kitabxana fəaliyyətini virtual rejimdə davam etdirir-Azərbaycan qəzeti.-2020.-19 aprel.-s.6.
4. Koronavirus pandemiyası dövründə Milli Kitabxananın hesabatı

## ВАЖНЫЕ АТРИБУТЫ СТРАНИЦ БИБЛИОТЕК В СОЦИАЛЬНЫХ МЕДИА

ИСМАИЛОВА А.И.

*РЕЗЮМЕ*

*В статье рассматриваются деятельность библиотек в социальных сетях, организация библиотечно-информационных услуг Национальной Библиотеки в онлайн-режиме во время карантина в связи с пандемией коронавируса.*

**Ключевые слова:** *социальные медиа, коронавирус (COVID-19), «Оставайтесь дома, берегите себя», «Креативный Азербайджан».*

## IMPORTANT ATTRIBUTES OF LIBRARY PAGES ON SOCIAL MEDIA

ISMAYILOVA A.I.

*SUMMARY*

*The article provides information about the activities of libraries on social media, as well as the organization of online library-information service of the National Library in quarantine during the coronavirus pandemic.*

***Key words:*** *social media, corona virus (COVID-19), "Stay at home, protect yourself", "Creative Azerbaijan"*